# Gənclər kartı vasitəsilə gənclərin mobilliyi ilə bağlı Hissəvi Saziş



**Gənclər siyasətinin inkişafı**

Sülh
sosial vəhdət
mədəniyyətlərarası dialoq
iştirak
insan hüquqları
demokratik vətəndaşlıq
araşdırma

Youth – Jeunesse

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

## QISMƏN RAZILAŞMA NƏDIR:

Hissəvi Saziş Avropa Şurası daxilində əməkdaşlığın xüsusi növüdür. Bu, üzv dövlətlərə digər üzv dövlətlərin həyata keçirdiyi bəzi fəaliyyətlərə qoşulmağa və ya qoşulmamağa imkan verir. Qanuni nöqteyi-nəzərdən Hissəvi Saziş digər proqram fəaliyyətləri kimi təşkilatın fəaliyyəti olaraq qalır. İstisna Hissəvi Sazişin öz büdcəsində və iş metodlarına sahib olmasından ibarətdir.Bunlar sadəcə Hissəvi Sazişin üzvləri tərəfindən müəyyən edilir.

## GƏNCLƏR KARTI VASITƏSILƏ GƏNCLƏRIN MOBILLIYI ILƏ BAĞLI HISSƏVI SAZIŞ

Bu, açıq hissəvi anlaşmadır. Yəni Avropa Şurasının üzvü olmayan dövlətlərin və ya Avropa Mədəniyyət Konvensiyasına qoşulmamış dövlətlərin bu anlaşmaya daxil olmaq hüquqları var (daha ətraflı aşağıda).

Hissəvi Saziş Avropa Şurasının Gənclər departamentinin bir hissəsidir və beləcə gənclər sektorunun və Avropa Şurasının prioritetlərini və məqsədlərini bütövlükdə izləyir.

## QOL:

**1. Gənclər kartı sxeminin inkişafı**

O, 1991-ci ildə yaradılıb və nizamnaməsində deyilir: “Hissəvi Saziş Gənclər kart sxeminin inkişafı xüsusən də gənclərin maraqlarını nəzərə alaraq [...] onların mobilliyini və həmçinin şəxsi və mədəni inkişaflarına lazım olan müxtəlif xidmətlərə çıxışlarını asanlaşdırmaq üçün Avropa səviyyəsində inkişafı məqsədini güdməlidir. 30 yaşdan aşağı olan hər kəs gənclər kartına sahib ola bilər. Bu gənc şəxsin tələbə və ya Avropa ölkəsi vətəndaşı rezidenti olmasına ehtiyac yoxdur.

Gənclər kartı gənc rezidentlərə və səyahətçilərə həm internetdə həm də internetdən kənarda mobillik, yaşayış yeri, mədəniyyət, dil kursları, xidmətlər və məhsullar sahəsində məsləhətlərdən, endirimlərdən və gəlirlərdən yararlanmaq imkanı verir. Uzun zamanlı müsbət təsir üçün verilən xidmətlərin keyfiyyətinin artırılmasına və ölçülməsinə böyük diqqət göstərilir.

**2. Üzv hökumətlərlə və onlar üçün ən yaxşı gənclər siyasətlərinin hazırlanması**

İkinci məqsəd gənclərin mobilliyi və gənclər kartı məsələlərində üzv hökumətlərin maraqlarına və ehtiyaclarına cavab verməkdir. İş proqramı bu məsələlərlə bağlı biliklər yaratmaq və onları səfərbər etmək, ən yaxşı praktikaları bölüşmək və beləcə ən yaxşı siyasi həll yollarını (seminarlar, təlimlər, simpoziumlar və s.) təklif etmək üçün nəzərdə tutulub. Bu fəaliyyətlərdən sonra ən yaxşı praktikaların nəşrləri və üzv dövlətlərə və EYCA-nın (Avropa Gənclər Kartı Assosiasiyası) milli üzv təşkilatlara xüsusi fəaliyyətlər üçün tövsiyələr hazırlanır.

Hissəvi Sazişə daxil olmayan dövlətlər öz xərcləri hesabına iş proqramında iştirak edə bilər. Üzv dövlətlərin nümayəndələrinin iştirak xərcləri tamamən ödənilir.

Bu məqsədlə bir çox maraqlı tərəf işə cəlb edilir: hökumətlər, Avropa təsisatları, biznes dünyası, ekspertlər, ali məktəblərin müəllim heyəti, gənclərin QHT-ləri, milli gənclər kartı təşkilatları və həmçinin gənclər kartına sahib olan şəxslər. Beləcə üzv dövlətlər Hissəvi Sazişin ekspertizasına həm aktiv şəkildə töhfə verir həm də ondan yararlanır.

## ƏMƏLIYYAT:

Fəaliyyətlər proqramına 17 üzvdən ibarət olan Koordinasiya Şurası nəzarət edir:

- Hissəvi Sazişin üzv dövlətlərinin Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən təyin edilmiş 8 nümayəndəsi;

- Avropa Gənclər Kartı Assosiyasiyasının Avropa Şurası Nazirlər Komitəsi tərəfindən təyin edilmiş 8 üzvü;

- Gənclər üzrə Məsləhət Şurasının təyin etdiyi və səsvermə hüququ olmayan 1 nümayəndəsi.

Hissəvi Sazişin iş proqramı Avropa Gənclər Kartı Assosiasiyası (EYCA) ilə əməkdaşlıq çərçivəsində tətbiq edilir. Bu 1987-ci ildə yaradılmış xeyriyyə cəmiyyətidir. O, bütün Avropada 5 milyondan çox kartın istifadə edildiyi 40-dan çox milli gənclər kartı təşkilatlarını təmsil edir. EYCA-nın bütün üzvləri gənclərin mobilliyini, gənclər arasında sağlam həyat tərzini və fəal vətəndaşlığı fərdi və kollektiv şəkildə təşviq etmək öhdəliyini öz üzərilərinə götürüblər.

## QISMƏN RAZILIĞA QOŞULMA QAYDASI

**Avropa Şurasının üzv dövlətləri və Avropa Mədəniyyət Konvensiyasının tərəf dövlətləri üçün:**

Sözü gedən üzv dövlətlər Hissəvi Sazişə Baş Katibə bu məqsədlə sadə bəyanat verərək istədikləri zaman qoşula bilərlər. Bunun üçün Avropa Şurasının Baş Katibinə Xarici İşlər Naziri və ya Avropa Şurası yanında Daimi nümayəndə tərəfindən rəsmi məktub və ya şifahi nota göndərilir.

**Avropa Şurasının üzvü olmayan dövlətlər və Avropa Mədəniyyət Konvensiyasının tərəf olmayan dövlətlər üçün:**

Avropa Gənclər Kartı Assosiyasiyasının və Hissəvi Sazişin Koordinasiya Şurasının təklifi ilə Nazirlər Komitəsi iştirak edən digər qeyri-üzv dövlətlə məsləhətləşdikdən sonra Avropa Şurasının üzvü olmayan istənilən dövləti Hissəvi Sazişə qoşulmağa dəvət edə bilər.

## Avropa Şurası

Avropa Şurası bütün Avropada beynəlxalq əməkdaşlığı, sülhü, demokratiyanı və insan hüquqlarını təşviq etmək üçün 1949-cu ildə yaradılmış siyasi pan-Avropa təşkilatdır. O, iqtisadi və hərbi sahələr istisna olmaqla insan həyatının bütün sahələrində ümumi problemlər üçün ümumi cavabları hazırlayır. 47 üzv dövlətin olduğu və Avropa Mədəniyyət Konvensiyasına 50 dövlətin qoşulduğu Avropa Şurası 820 milyon avropalını bir araya gətirir.

## Avropa Şurası gənclər sektoru

Avropa Şurası gənclərin cəmiyyətdəki fəal rolunu Avropada aparılan müxtəlif fəaliyyətlərlə dəstəkləyir. Bunu həm hökumətlərarası əməkdaşlıq həm də gənclərin QHT-ləri və gənc liderlərlə və onlar üçün nəzərdə tutulan təlimlərin və tədris fəaliyyətləri çərçivəsində həyata keçirir. Strasburqdakı və Budapeştdəki Avropa Gənclər Mərkəzləri, Avropa Gənclər Fondu və Gənclər kartı vasitəsilə gənclərin mobilliyi ilə bağlı Hissəvi Saziş bu fəaliyyətlərin aparılması üçün əsas vasitələrdir.

## ƏLAQƏ


**Directorate of Democratic Participation**

Youth Department (Agora Building)

Youth Policy Division

Partial Agreement on Youth Mobility
through the Youth Card

F-67075 Strasbourg Cedex

Tel.: + 33 (0)3 88 41 29 98

**youthmobility@coe.int**
**coe.int/en/web/youth/youth-mobility**



Prems 024420

AZE


**www.coe.int**

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

Youth – Jeunesse

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE